# GÖZƏL

*Bilmirəm kipriyin aldadır məni,*
*Ya qaşların sənin kamandır, gözəl?!*
*Baxışın nə yaman dikilib mənə,-*
*Oxlama qəlbimi amandır, gözəl!*

*Ceyrana bənzəyir hüsnü-camalın,*
*Almısan başımdan əqli-kamalı,*
*Bəlkə bu aşiqə vardır sualın, -*
*Məhəbbətin yolu dumandır, gözəl!*

*Kənar etmə gəl sən məni özündən,*
*Qoy mən ilham alım xumar gözündən.*
*Əgər Əflatunun çıxsan sözündən*
*Görərsən ki, ömrü talandı, gözəl...*

# NEYLƏYİM?

*Bir vaxt qoşa gəzdiyimiz o yerlər*
*İndi xatirəyə dönüb, neyləyim?*
*Daim alovlanıb alışan eşqim*
*Yanan bir çıraq tək sönüb, neyləyim?!*

*Deyərdin əhdimə eylərəm vəfa,*
*Verməram sevdiyim aşiqə cəfa.*
*Möhnət çəkdiyimi sən bildin rəva,-*
*Ayım sənsiz ilə dönüb, neyləyim?!*

*Qəlbimdə dönmüşdün sönməz məşələ,*
*Eşqimiz düşübdür dildən-dillərə,*
*Məni həsrət qoysan xumar gözlərə*
*Görərsən Əflatun ölüb, neyləyim?!*

**Əflatun Hüseynov**
**Lənkəran**